# Həftəlik
# *Bülleten*



**086**
**04 Aprel 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Şuşa Qoruğu çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil edəcək.**

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil edəcək. Bu, Prezident İlham Əliyevin Fərmanı ilə "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə edilən dəyişiklikdə əksini tapıb. Fərmana əsasən, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi fəaliyyət istiqamətləri və vəzifələri artırılıb. Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin fəaliyyət istiqamətləri sırasına aşağıdakılar əlavə edilib:
- Şuşa rayonu və müvafiq ərazidə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək; - tikintisini təşkil etdiyi çoxmənzilli binaları, həmin binalardakı mənzillər sakinlərə tam təhvil verilənədək, müvəqqəti idarə etmək; - rayon ərazisində və müvafiq ərazidə mənzil-kommunal təsərrüfatı sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, kommunal təsərrüfatı idarə etmək; - rayon ərazisində və müvafiq ərazidə abadlaşdırma və yaşıllaşdırma işlərini təşkil etmək; - müvafiq ərazidə yerləşən, balansında olan şəhər avtomobil yollarının idarə olunmasını, təmirini, saxlanılmasını, qorunmasını təşkil etmək və onların vəziyyətinə nəzarət etmək. İdarənin vəzifələri sırasına isə aşağıdakı yeni bəndlər əlavə edilib: - rayon ərazisinə və müvafiq əraziyə əhalinin qayıdışı ilə əlaqədar çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisini təşkil etmək, o cümlədən bu tikinti işləri üzrə sifarişçi funksiyalarını həyata keçirmək; və s.



**Bakıda gələn aydan böyük söküntü başlayır.**

Növbəti aydan etibarən ''Sovetski'' adlanan ərazidə söküntünün 4-cü mərhələsinin başlanacağı ehtimal edilir.

Məlumat verilir ki, əmlak eksperti Elnur Fərzəliyevin sözlərinə görə, hazırda Bakıda söküntü işləri əsasən iki formada aparılır. Bunlardan biri torpaqların dövlət ehtiyacları üçün alınması, digəri isə özəl sektor tərəfindən qəzalı vəziyyətdə olan tikililərin sökülərək yeniləri ilə əvəzlənməsidir.

Ekspertin sözlərinə görə, qaydalara əsasən, vətəndaşlara evləri söküldükdən sonra yeni tikilən binada mənzillərlə təmin olunana qədər kirayə pulları və köç xərcləri tikinti şirkəti tərəfindən ödənilməlidir. O həmçinin əlavə edib ki, baş verəcək söküntü işləri bazara təsirsiz ötüşməyəcək.

Qeyd edək ki, söküntü işləri çərçivəsində tarixi-memarlıq abidələrinə toxunulmayacaq.



**Sənədsiz evlərlə bağlı problemin həlli üçün hansı işlərin görüldüyü – AÇIQLANDI.**

Sənədsiz evlərin (tikililərin) sənədləşdirilməsinin nizamlanması ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin iştirakı ilə yaradılmış İşçi qrup tərəfindən iş davam etdirilir. Sənədsiz evlərin (tikililərin) sənədləşdirilməsinin nizamlanması ilə bağlı İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində aidiyyəti dövlət qurumlarının mütəxəssislərinin iştirakı ilə yaradılmış İşçi qrup tərəfindən problemin həlli yolları barədə hüquqi, iqtisadi, tikinti, şəhərsalma və torpaq qanunvericiliyi nöqteyi-nəzərindən təhlillər aparılır və məsələnin nizamlanması ilə bağlı normativ hüquqi aktların layihələrinə dair təkliflərin hazırlanması istiqamətində işlər davam etdirilir. Yeni Qaydalarda yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi torpaqların bir kateqoriyadan digərinə keçirilməsi əsaslarından biri kimi müəyyənləşdirilib. Qaydaların tələblərinə uyğun olaraq, müvafiq rayon (şəhər) icra hakimiyyətlərinin və bələdiyyələr tərəfindən ərazi planlaşdırma və şəhərsalma sənədlərinə uyğun olaraq hazırlanmış əsaslandırılmış müraciətlər daxil olduqda, yaşayış məntəqələrinin torpaqlarına aid olmayan torpaqlarda salınmış yaşayış massivlərinin yerləşdiyi torpaq sahələrinin kateqoriyasının dəyişdirilməsi məsələsinə baxıla bilər.



**Bakının hansı əraziləri həyət evi tikmək üçün əlverişlidir?**

"Ölkənin müxtəlif ərazilərində, xüsusilə, paytaxt Bakı və ətraf ərazilərdə yüzlərlə yaşayış massivləri, kənd və qəsəbələr mövcuddur. Fərdi yaşayış evləri inşa edilərkən mütləq şəkildə həmin ərazinin relyefi, ekoloji durumu qiymətləndirilməlidir. Bu gün Bakı ətrafı ərazilərdə, xüsusilə Abşeronda yaşayış üçün qadağan olunmuş ərazilərdə tikilmiş fərdi həyət evləri birbaşa təhlükə mənbəyidir. Məsələn, Abşerondan vulkanik dağların ətrafında yaşayış massivləri tikilib. Həmin ərazidə istənilən zaman vulkan püskürə, böyük fəlakətlə nəticələnə bilər".Bu sözləri əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev deyib. Ekspert bildirib ki, yüksək gərginlikli elektrik stansiyalarının ətrafında tikilmiş fərdi yaşayış evləri də şüalanmaya məruz qalır: "Digər tərəfdən, rütubətli ərazilərdə yaşayış massivlərinin salınması həmin evlərin təmirinin qısa müddətdə bərbad vəziyyətə düşməsi ilə bərabər, insan sağlamlığına da mənfi təsirini göstərir. Buna görə də vətəndaşlar, xüsusilə, dənizə yaxın yerləşən ərazilərdə fərdi həyət evləri tikərkən mütləq ekoloqlardan, mütəxəssislərdən, coğrafiyaşünaslardan rəy almalıdırlar. Çünki Bakıda və ölkəmizin müxtəlif bölgələrində seysmik, sürüşməyə meyilli torpaq sahələri mövcuddur. Bu kimi ərazilərdə zamanla sürüşmələr səbəbindən evlərdə çatlar və dağıntılar əmələ gəlir". E.Fərzəliyevin sözlərinə görə, sıx şəkildə tikilmiş, işıq düşməyən, işıqlandırması az olan mənzillərdə daha çox xəstəliklər yaranır.



**Narazılığa səbəb olan bu obyektlər - SÖKÜLƏCƏK**

"Sumqayıt şəhərini Abşeron rayonunun Saray qəsəbəsi ilə birləşdirən Məhəmməd Əsədov küçəsində genişləndirilmə işləri aparılacaq".

Bunu Sumqayıt Şəhər İcra Hakimiyyətinin sözçüsü Eyvaz Qocayev deyib.

"Yolda genişləndirmə işlərinin aparılması nəzərdə tutulub. Piyadaların və nəqliyyatın hərəkətinin rahatlığını təmin etmək məqsədilə əvvəlki yol infrastrukturu körpüyə uyğunlaşdırılacaq. Bununla bağlı qərara alınıb ki, yaxın zamanlarda Məhəmməd Əsədov küçəsinin genişləndirilməsi ilə bağlı yeni layihə hazırlansın və icrasına başlanılsın",- deyə E. Qocayev bildirib. Xatırladaq ki, Bakı ilə Sumqayıtı birləşdirən Saray körpüsünün təmirdən sonra açılışı martın 18-də baş tutub. Uzunluğu 104 metr olan körpü üç aşırımdan ibarətdir. Körpünün ümumi eni 21.6 metrdir və iki gediş, iki dönüş olmaqla dörd hərəkət zolağından ibarətdir.

Qeyd edək ki, açılışdan dərhal sonra sürücülər körpünün giriş və çıxışının daralmasına səbəb olan obyektlərin sökülməməsinə etiraz ediblər. Onlar bildiriblər ki, bu hal həmin ərazidə ağır qəzaların baş verməsinə səbəb ola bilər.



**Builki "İnşaat Həftəsi"ndə həyata keçiriləcək layihələr açıqlandı.**

3 aprel tarixində ATMİA Baş katibi Şahanə Sarı mətbuata açıqlamasında bildirib ki, AR prezidenti cənab İlham Əliyevin 16 dekabr 2009-cu il fərmanına əsasən təsis edilən 10 aprel-İnşaatçılar Günü münasibətilə biz hər il silsilə layihələr həyata keçiririk. İnşaat Həftəsi çərçivəsində biz Azərbaycan Memarlar İttifaqı və Azərbaycan Sənaye Təhlükəsizliyi assosiasiyası ilə memorandum imzalayacaq, ATMİA Avropa Mühəndislik Cəmiyyətinə üzvlüyə qəbul ediləcək, həmçinin Mətanət A Şirkətlər Qrupu tərəfindən dünya müasir təmir tendensiyasına uyğun hazırlanmış İNOVEX oda və nəmə davamlı fasad lövhələrinin ilk dəfə təqdimatı keçiriləcək.






**Azərbaycan Memarlar İttifaqı ilə ATMİA arasında uzunmüddətli strateji tərəfdaşlığa dair memorandum imzalanıb.**

ATMİA İnşaatçılar həftəsi çərçivəsində 4 aprel tarixində Azərbaycan Memarlar İttifaqı ilə ATMİA arasında uzunmüddətli strateji tərəfdaşlığa dair memorandum imzalanıb. AMİ sədri, prof. Elbay Qasımzadənin təklifi ilə işçi qrupu yaradılıb və AzMiU "Memarlıq layihələndirməsi və şəhərsalma" kafedrasının dosenti, "Layihə Tikinti" MMC-nin baş memarı Vəliyev Nazim işçi qrupuna sədr təyin edilib.



**"MATANAT A" Ustalar Klubu, MİRVANA məhsulu üzrə -Ustaların Sertifikasiya Proqramını uğurla davam etdirir.**

"MATANAT A" Ustalar Klubu, MİRVANA məhsulu üzrə - Ustaların Sertifikasiya Proqramını uğurla davam etdirir. Sertifikasiya proqramı zamanı Lənkəran şəhərində İtalyan texnologiyası ilə istehsal edilən MİRVANA haqqında təlim təşkil edilmişdir. 20-ə yaxın ustanın qoşulduğu təlimdə iştirakçılar yeni tətbiq formaları öyrəndilər və nəzəri biliklərini praktik məşğələlərlə möhkəmləndirdilər.

MİRVANA-İtalyan texnologiyası ilə hazırlanan dekorativ boya ailəsidir: Artıq divarkağızı – oboy dövrü keçmişdə qaldı, MİRVANA dövrü başlayır. Geniş çeşidə malik olan MİRVANA-nın aşağıdakı növləri var:

• MİRVANA Effetto velluto - Məxmər effekti • MİRVANA Effetto cristallo - Kristal effekti • MİRVANA Effetto di doratura - Zər effekti • MİRVANA Effetto perla - Mirvari effekti • MİRVANA Effetto travertino - Travertin effekti • MİRVANA Effetto antico - Antik effekti • MİRVANA Effetto di marmo - Mərmər effekti • MİRVANA Effetto di calcestruzzo - Beton effekti • MİRVANA Effetto di vento - Külək effekti • MİRVANA Effetto legno - Taxta effekti • MİRVANA Primer decorativo - Dekorativ Astar • MİRVANA Stucco veneziano - Venesiya effektli divar məcunu

MİRVANA - oboydan daha üstün! Təlimin son günü sertifikasiya prosesi həyata keçirildi və nəticələrə uyğun olaraq, ustalar sertifikatlarla təltif edildilər.

Qaynar xətt: +994 50 298 30 30






**ATMİA üzvü «RAM CONSTRUCTION» MMC**
**Şirkət haqqında:**

“RAM Construction” MMC təsis olunduğu günə qədər fiziki şəxs olaraq peşəkar komandayla ölkədə aparılan tikinti quraşdırma işlərində fəal iştirak etmiş və bir çox əhəmiyyətli layihələrin inşasında xüsusi rolu olmuşdur. Əsas profili sənaye obyektlərinin, depo sistemlərinin, soyuducu kameraların kompleks halında inşasını həyata keçirməkdən ibarətdir.
“RAM Construction” şirkətinin direktoru Məmmədov Murad.

**Əlaqə məlumatları:**
Ünvan: 12 Alaskar Gayibov St, Baku 1029
Tel: 051 724 94 11
E-mail: office@ramconstruction.az
https://www.ramconstruction.az/

**ATMİA üzvü "Qala Group" MMC**

**Şirkət haqqında:**

Qala Group, yüksək ixtisaslı mütəxəssislər qrupu tərəfindən hazırlanmış memarlıq və inşaat həlləri təklif edən, müasir və yaradıcı bir şirkətdir. Komandamız 2010-cu ildən layihələr həyata keçirir və inşaat sahəsində innovativ, misilsiz və müasir layihələrlə seçilir. Peşəkar komandamız sayəsində, uzun illərə dayanan təcrübəmizə və bu sahə üzrə biliklərimizə əsaslanaraq interyer dizayn, landşaft dizayn, layihələndirmə, inşaat, infrastruktur işləri üzrə xidmətlər göstəririk.

"Qala Group" MMC şirkətinin direktoru Abil Səfərov.

**Əlaqə məlumatları:**

Ünvan: Zahid Xəlilov küç-53 / AZ 1122

Əlaqə nömrəsi: (+994 12) 404 70 66

E-mail: info@qalagroup.az

https://qalagroup.az/

# ANONS

**Hörmətli Sahibkarlar,**

9 aprel saat 10:00-da BAKI KOB evində ATMİA İnşaatçılar Həftəsi çərçivəsində Mətanət A Şirkətlər Qrupu tərəfindən dünya müasir təmir tendensiyasına uyğun hazırlanmış İNOVEX oda və nəmə davamlı fasad lövhələrinin ilk təqdimatı keçiriləcəkdir. Tədbir xüsusilə inşaat şirkətləri, təmir-layihələndirmə və idxal-ixrac fəaliyyəti göstərən şirkətlərin nümayəndələri üçün nəzərdə tutulmuşdur.
Qeydiyyat: 050 250 36 34 və 010 250 03 24



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: MARBLE IZMIR 2025**
**Tarixlər: 09 - 12 aprel 2025-ci il,**
**Məkan: Fuar İzmir, İzmir (Türkiyə)**
Beynəlxalq Mərmər, Təbii Daş və Texnologiyalar Sərgisi

**Sərginin adı: WOODEN HOUSES 2025**
**Tarixlər: 01 - 04 aprel 2025-ci il,**
**Məkan: Crocus-Expo IEC, Moskva (Rusiya)**
Taxta Evlərin Beynəlxalq İxtisaslaşdırılmış Sərgisi. Rusiyanın və dünyanın aparıcı istehsalçılarını, təchizatçılarını, inşaatçılarını, memarlarını və dizaynerlərini bir araya gətirən taxta evlərin tikintisi sahəsində ən uğurlu sərgilərdən biri.

**Sərginin adı: BISHKEK BUILD 2025**
**Tarixlər: 15-17 aprel 2025-ci il,**
**Məkan: Ksapes Arenası, Bişkek (Qırğızıstan)**
Beynəlxalq Qırğızıstan İnşaat Sərgisi.

**Sərginin adı: DESIGN&DECOR ST. PETERSBURG 2025**
**Tarixlər: 15-17 aprel 2025-ci il,**
**Məkan: Sankt-Peterburq (Rusiya) Expo Forum Konqres və Sərgi Mərkəzi**
Design&Decor interyer və dekor elementləri təchizatçılarının dizayn ictimaiyyətinin nümayəndələri ilə qarşılıqlı əlaqəsi, ideya axtarışı, peşəkar inkişaf, şəbəkə qurmaq, həmfikirlərlə ünsiyyət üçün effektiv platformadır.

**Böyük tikinti tenderi elan edildi - 12,8 MİLYON MANAT**

Səhiyyə Müəssisələrinin Təminatı Mərkəzi tikinti işləri ilə bağlı böyük tender elan edir.
Tenderdə Naxçıvan şəhərində, Ailə Sağlamlıq Mərkəzi kompleksinin tikinti işlərinin satınalınması nəzərdə tutulur.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Asiman Cəfərov, Mühasib
Email: procurement@nsehiyye.gov.az
Əlaqə telefonu: +994 60 200 00 14



**Cəlilabadda yeni xəstəxana tikilir - 9,7 MİLYONLUQ TENDER**

Səhiyyə Nazirliyinin Tikilməkdə Olan Müəssisələrinin Müdiriyyəti açıq tender elan edir.
Elanda Cəlilabad Rayonunun Göytəpə şəhərində 60 çarpayılıq xəstəxananın tikintisi və avadanlıqla təchizatı işlərinin davamı (II mərhələ) nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əkrəm Səlifli, Baş mühasib
Email : ftprovision@gmail.com
Əlaqə telefonu : 0124930318



**Bakıda yeni park salınır - TENDER ELAN EDİLDİ**

“Bakı Şəhər Əsaslı Tikinti və Təmir” MMC açıq tender elan edir. Elanda Bakı şəhəri, Nərimanov rayonu, Əhməd Bəy Ağaoğlu, Təbriz və Tələt Şıxəliyev küçələrinin əhatəsində salınacaq yeni parkın layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Əhməd Məmmədov, Mühəndis
Email : ahmed.mmmdov@gmail.com
Əlaqə telefonu : 0506121527



**Azərbaycan Respublikası Təhsil Nazirliyinin təsərrüfat hesablı əsaslı tikinti və təchizat idarəsi - TENDER ELAN ETDİ**

Azərbaycan respublikası təhsil nazirliyinin təsərrüfat hesablı əsaslı tikinti və təchizat idarəsi açıq tender elan edir.
Elanda Sumqayıt şəhər 21 nömrəli 1176 şagird yerlik məktəbin əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Zülfuqar Quliyev, Əsaslı Tikinti və Təchizat İdarəsinin Satınalmaların təşkili şöbəsinin baş mütəxəssisi
Email: zulfugar.guliyev@etti.edu.gov.az
Əlaqə telefonu : 465-73-48



**Qax Rayon İcra Hakimiyyəti - TENDER ELAN EDİR.**

Qax Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Qax şəhəri ərazisində yerləşən kommunal yaşayış binaların təmiri və həyətlərində abadlıq işləri, o cümlədən Qax rayon Dövlət Arxivində təmir işlərinin satın alınmasını nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elbrus Tağıyev, RİH başçısının birinci müavini
Email: mail@qax-ih.gov.az
Əlaqə telefonu : (024)-255-32-32





**www.atmia.az**